*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 dekabr 2016-cı il № 97 (2112) Qiyməti 25 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir.*

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**

# Müdafiə Nazirliyinin şəxsi heyəti Ümummilli Liderin xatirəsini yad edib

*Dekabrın 12-də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anma günü münasibəti ilə Fəxri xiyabanı ziyarət edib.*



Ölkəmizin iqtisadi, siyasi, elmi, mədəni, hərbi sahələrində müasir Azərbaycan tarixinin yaxın bir qərinədən artıq müddəti dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Heydər Əliyevin fəaliyyətinin dərin və zəngin izləri qalmaqdadır. Həyatımızın elə bir sahəsi olmaz ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin. Hələ Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizin gələcəyi naminə gənclərin həyatda öz yerini tutması, müasir biliklərə yiyələnməsi və vətənpərvər ruhda tərbiyə alması üçün əlindən gələni əsirgəməmişdi. Böyük öndər azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ən qabaqcıl təhsil müəssisələrinə oxumağa göndərilməsinə nail olmuşdu. Hər il respublika rəhbəri onlarla şəxsən görüşərək onlara xeyir-dua arzulayır, tövsiyələrini bildirir. Xalqımızın Ümummilli Lideri hələ o illərdə uzaqgörənliklə azərbaycanlıların hərbi təhsilə və xidmətə yönləndirilməsinə çalışır, bu sahədə böyük işlər görürdü. O zaman respublika rəhbərinin atdığı addımların nə qədər əhəmiyyətli olduğunu müstəqillik illərində anladıq.

Ümummilli Liderin xatirəsi Azərbaycan Silahlı Qüvvələrinin hər bir zabit, gizir və əsgəri üçün əzizdir. Bu böyük şəxsiyyətin yaratdığı ordu bu gün Cənubi Qafqazın ən güclü ordusudur. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçmiş Silahlı Qüvvələrimizin şəxsi heyəti Ulu Öndəri həmişə böyük minnətdarlıq hissi ilə xatırlayır.

Hərbi qulluqçular Ümummilli Liderin anma günündə xatirəsini hörmət və ehtiramla yad edərək, məzarı üzərinə gül dəstələri qoyublar.

**"Azərbaycan Ordusu"**

# "Xalqa bağışlanan ömür"

*Bakı şəhər İcra Hakimiyyəti başçısı Aparatının Kino Xidməti İdarəsi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirdi. Tədbir açıq elan edildikdən sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.*

Millət vəkilləri Fazil Qəzənfəroğlu, Jalə Əliyeva, Aydın Mirzəzadə, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin birinci vitse-prezidenti Rasim Məmmədov və polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək Ulu Öndərlə bağlı xatirələrindən söz açdılar, dahi rəhbərin Azərbaycan xalqı və dövləti üçün gördüyü misilsiz işlərdən ətraflı danışdılar.

Onlar bildirdilər ki, Azərbaycan xalqının tarixi və taleyi ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır.

Çıxışlarda bildirildi ki, respublikamıza müxtəlif dövrlərdə rəhbərlik etmiş Heydər Əliyev hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmışdır. Xalqa dayaq olmuş, onu zamanın ağır sınaqlarından, təhlükələrindən xilas etmişdir. Hələ respublikamızda birinci hakimiyyəti dövründə - 1969-1982-ci illərdə Heydər Əliyev Azərbaycan üçün əlindən gələni əsirgəməmiş, onun inkişaf etməsi və sabiq ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxması yolunda bütün imkanlardan bacarıqla istifadə etmişdir.



Dünyada məşhur siyasətçi, müdrik dövlət xadimi kimi tanınan ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimizin inkişafında əsaslı dönüşün bünövrəsini qoymuşdur. Ulu Öndərin hakimiyyətə qayıdışı nəticəsində ölkədə müstəqil dövlətçiliyin atributları yaranmağa və möhkəmlənməyə başladı. Dövlət quruculuğunun mühüm tərkib hissəsi olan Silahlı Qüvvələr Ümummilli Liderimizin gərgin səyləri sayəsində formalaşdı, möhkəmləndi və döyüş təcrübəsi qazandı.

Qeyd olundu ki, çox haqlı olaraq Heydər Əliyev Azərbaycan Silahlı Qüvvələrinin qurucusu və yaradıcısı adlandırılır. Dahi siyasətçi və müdrik komandan olan Heydər Əliyevin böyük diqqət və qayğısı ilə Azərbaycan Ordusu çox qısa bir zamanda yenidən qurularaq dövlətçiliyimizin və müstəqilliyimizin etibarlı qarantına çevrildi.

Natiqlər əminliklə qeyd etdilər ki, Heydər Əliyev ideyaları bu gün də yaşayır. Ulu Öndərin siyasi kursu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Son on üç ildə dövlət başçımızın yorulmaz fəaliyyəti nəticəsində müstəqil Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevrilib."




Bakı şəhər İcra Hakimiyyəti Aparatının Kino Xidməti İdarəsinin rəhbərliyi tədbirdə çıxış edən incəsənət ustalarını və hərbi orkestrin dirijorunu fəxri fərmanlarla mükafatlandırdı. Mükafatları incəsənət nümayəndələrinə millət vəkilləri Jalə Əliyeva və Fazil Qəzənfəroğlu təqdim etdilər. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin orkestrinin dirijoru mayor Fariz Məmmədzadəyə isə fəxri fərmanı Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev təqdim etdi.

Tədbirdə "Xalqa bağışlanan ömür" adlı sənədli film nümayiş olundu. Azərbaycanın xalq artisti Ağadadaş Ağayev və əməkdar artist Elza Seyidcahan ümummilli lider Heydər Əliyevə həsr olunmuş mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**

## Ermənistan silahlı qüvvələrinə məxsus 2 ədəd PUA vurulub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dekabrın 12-si cəbhənin Füzuli rayonu və Talış kəndi istiqamətlərində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçuş aparatları (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəşlə məhv edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***12 dekabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şuraabad, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***13 dekabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Heydər Əliyev irsini öyrənirik*

# Ulu Öndərin Azərbaycan gəncliyinə qayğısı





*Dekabrın 12-də Silahlı Qüvvələrin bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmələr, xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anma günü münasibəti ilə keçirilən mərasimlərdə iştirak edib. Hərbi qulluqçular bölgələrdə yerləşən Heydər Əliyev Mərkəzləri, eləcə də Ulu Öndərin abidələrini ziyarət edib və dahi şəxsiyyətin xatirəsini anaraq ehtiramlarını bildiriblər.*

Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti milli-mənəvi irsimizi təşkil edir və gənc nəsillər üçün, sözün həqiqi mənasında, örnək hesab edilir. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş Ümummilli Liderimiz həm keçmiş Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Ölkəmizin iqtisadi, siyasi, elmi, mədəni, hərbi sahələrində Heydər Əliyev fəaliyyətinin dərin və zəngin izləri qalmaqdadır. Bu səbəbdən Ümummilli Lider müasir Azərbaycan dövlətinin memarı və banisi hesab edilir.

Hələ Sovet hakimiyyəti illərində xalqımızın ümummilli lideri Heydər Əliyev böyüməkdə olan nəslə xüsusi diqqət və qayğı göstərirdi. Həmin illərdə respublika rəhbəri Azərbaycan gənclərinin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almasına nail olmuşdu və hər il həmin gənclərlə şəxsən görüşüb onlara müvəffəqiyyətlər arzulayırdı.

Ulu öndər Heydər Əliyev Silahlı Qüvvələrimizin təşəkkül və inkişafında əvəzsiz xidmət göstərmişdir. Əslində, ölkəmizdə ordu quruculuğu prosesi məhz böyük öndərin adı ilə bağlıdır. Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün çox iş görmüşdü. İndi Azərbaycan Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyi haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırırlar. Bu ibtidai hərbi təhsil ocağının yaradılması, əslində, Ulu Öndərin adı ilə bağlıdır. Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev azərbaycanlı gənclərin hərbi xidmətə marağının artırılması və onların ordu sıralarında ölkəmizi layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə bu məktəbin paytaxtımızda yaradılmasına nail oldu. Bu gün Silahlı Qüvvələrimizdə xidmət edən yüzlərlə zabit, neçə-neçə general hərbçi sənətinin əlifbasına bu məktəbdə yiyələnib.

1996-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının 25 illiyi qeyd edilərkən dövlət başçısı bildirmişdi: "25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mən həyatımda gördüyüm işlər içində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm yüksək qiymətləndirirəm".

Müstəqillik illərində hakimiyyətə yenidən qayıtdıqdan sonra dövlət başçısı gənclərə münasibəti hökumətin prioritet vəzifələri səviyyəsinə qaldırdı. Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti aparması, ölkədə baş verən mürəkkəb hadisələr bir çox problemlərin ortaya çıxmasına səbəb olmuşdu. Müdrik siyasətçi və dahi dövlət xadimi olan Heydər Əliyev o zaman böyük qüvvə olan gəncliyə arxalandı. Doğrudan da, xalqın taleyüklü problemlərini sağlam, savadlı və Vətənini sevən yeni nəsil aradan qaldıra bilərdi.

Hakimiyyətə gəldiyi ilk vaxtlarda Ümummilli Lider gənclərin böyük bir qrupu ilə görüş keçirdi və həmin narahat dövrdə onların ovqatı və düşüncələrilə tanış oldu. Böyük Öndər gənclərin ictimai fəallığını artırmaq məqsədilə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması barədə sərəncam imzaladı. Dahi rəhbərin vaxtilə söylədiyi fikirlər bu gün böyüməkdə olan nəsil tərəfindən dəyərli və müdrik tövsiyə kimi qəbul olunub: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Ölkənin ictimai-siyasi həyatında gənclərin rolunu artırmaq, onların fəaliyyətinin sağlam məcraya yönəldilməsi məqsədilə dövlət başçısı 1996-cı ildə xüsusi sərəncam imzaladı və həmin il fevralın 2-də Azərbaycan gənclərinin ilk forumu keçirildi.

Özünəməxsus qaynarlığı, maksimalizmi ilə seçilən yeni nəslin nümayəndələri forumda maraqlı ideya və təkliflərlə çıxış etdilər və bir daha sübut etdilər ki, onlar, doğrudan da, ölkənin uğurlu gələcəyini təmin etməyə hazır və qadirdirlər.

Forumda çıxış edən dövlət başçısı Azərbaycanın qarşısında duran taleyüklü məsələlərin həlli və dövlətimizin tərəqqisi naminə gənclik qarşısında böyük vəzifələrin dayandığını dilə gətirdi. Ümummilli Liderin forumda söylədiyi dərin məzmunlu nitqi müstəqil dövlətimizin gəncləri üçün fəaliyyət proqramına çevrildi.

Gənclərin möhtəşəm toplantısı respublikamızın ictimai həyatında böyük bir hadisə, gənclərin taleyində dönüş nöqtəsi oldu və geniş əks-səda doğurdu. Görünür, elə buna görə dövlət başçısı, 1 fevral 1997-ci il tarixli sərəncamına əsasən, 2 fevralı Azərbaycan Gənclər Günü elan etdi.

Ölkə rəhbərliyinin böyüməkdə olan nəslə qayğısı, əslində, bununla bitməmiş, dövlətin gənclər siyasəti müəyyən edilmiş və həyata keçirilməyə başlanmışdır. Gənclər və İdman Nazirliyinin yaradılması buna parlaq sübutdur.

Müstəqilliyimizin ilk illərində Ulu Öndərin rəhbərliyilə Azərbaycan xaosdan azad olmağı bacardı. Xalqın tələbilə Azərbaycana rəhbərliyə başladıqdan sonra, dövlət çevrilişi cəhdlərinə, müxtəlif manеələrə baxmayaraq, bütün maneələri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxardı. Böyük iradə və gərgin zəhmət bahasına Prezident Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağa nail oldu və respublikamızın inkişafı üçün zəmin yaratdı.

Ordumuzda baş alıb gedən neqativ proseslər tədricən aradan qaldırıldı. Hərbi intizamın, vahid komandanlıq prinsipinin möhkəmləndirilməsi, döyüş hazırlığına və təlim prosesinə daha çox diqqət yetirilməsi, Silahlı Qüvvələrin maddi-texniki təminatının ilbəil yüksəldilməsi nəticəsində hərbi hissələrimizdə köklü dəyişikliklər baş verdi.

Ən vacib məsələlərdən biri olan kadr hazırlığına dövlət rəhbərliyi səviyyəsində diqqət və qayğı artırıldı. Zabit kadrlarının, digər hərbi mütəxəssislərin peşəkarlığını arzuolunan səviyyəyə qaldırmaq məqsədilə ölkəmizdə kompleks hərbi tədris sistemi yaradıldı.

Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətdə saxlayır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın işğalından azad edilməsi, eyni zamanda ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir.

Gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətənin keşiyini çəkir, təlim və məşğələlərdə döyüş hazırlığını artırır, mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənir, bir sözlə, Azərbaycanın təhlükəsizliyi naminə qüvvələrini əsirgəmir. Bu gün ordumuzun qazandığı nailiyyətlər ilk növbədə gənclərimizin şərəfli və məsuliyyətli fəaliyyəti ilə bağlıdır.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən hazırda uğurla həyata keçirilir. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər isə ölkəmizin qüdrətini daha da artırmaqdadır. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Azərbaycan dövlətçiliyinin inkişafında böyük xidmətləri olan Ümummilli Liderin zəngin tarixi irsi, çoxşaxəli siyasi fəaliyyəti bu gün Silahlı Qüvvələrimizdə layiqincə təbliğ edilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrdə "Heydər Əliyev irsini öyrənirik" mövzusunda ictimai-siyasi məşğələlər təşkil edilir. Məşğələlərin keçirilməsində başlıca məqsəd Ulu Öndərin Vətənimiz qarşısında misilsiz xidmətləri barədə zabit və əsgərlərimizdə dolğun təsəvvür yaratmaqdır. Bu bir həqiqətdir ki, dünya şöhrətli siyasi xadim olmuş Heydər Əliyevin həyatı və fəaliyyəti Silahlı Qüvvələrin şəxsi heyəti üçün ən layiqli örnəkdir.



**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# "Düşmən heç vaxt məqsədinə çata bilməz"

*Bu dəfə üz tutduğumuz düşmənlə təmas xətti düzənlikdən keçirdi. Dağlıq ərazidə olduğu kimi, buranın da müdafiəsinin özünəməxsus xüsusiyyətləri var. Kapitan Orxan Nəsirovla görüşəndə, düşmənlə qarşı-qarşıya duran Vətən oğullarının döyüş və mənəvi-psixoloji hazırlığından söz açdı, səngərdə dayanan əsgərlərin xoş ovqatda olduğunu söylədi.*



...Gəldiyimiz bölmənin dayaq məntəqəsi geniş düzənlikdə yerləşdiyinə görə qarşı tərəfi görmək mümkündür. Düşmənin yerləşdiyi mövqelərə baxıram. Qarşımda ürək dağlayan bir mənzərə açılır. Lənətə gəlmiş ermənilər torpaqlarımıza göz dikməmişdən əvvəl o kəndlərdə yüz illər boyu soydaşlarımız firavan yaşayıb ömürlərini burada vəfa etmişlər. İndi isə həsrətlə baxdığımız o yerlər ermənilər tərəfindən dağıdılıb, ocaqları sönük qalıb. Nə qədər həmvətənimiz dədə-baba yurduna həsrətdir.

Bu il aprelin əvvəllərində cəbhədə vəziyyət yenidən gərginləşdi. Düşmənlə qarşı-qarşıya dayanan bölmələrimiz atəşkəsi pozan erməniləri bir yolluq susdura bildi. Xalqımız işğal altında qalan ərazilərimizin bir hissəsinin azad edilməsinə sevindi. Ən çox sevinənlər isə köçkünlər oldu. Onlar tezliklə doğma yurd-yuvalarına dönəcəkləri günün yaxında olduğuna əmin oldular... Ordumuz düşmənə ağır, sarsıdıcı zərbə vurdu. Qarabağda və işğal etdikləri ərazilərdə məskunlaşan ermənilər bir günün içində qaçmağa başladılar. Bir daha yəqin etdilər ki, onlar burada daimi məskunlaşa bilməzlər. Çətin ki, bu döyüşlərdən sonra hansısa erməni bu torpaqlarda yaşamaq üçün köçünü salsın...

...Səngərlər döyüş aparmaq üçün tam yararlıdı. Üstüörtülü mövqelər artilleriya mərmilərindən müdafiə olunmaq və hücum edən düşmənin qarşısını almaq məqsədilə hazırlanıb. Mazğaldan qarşımızdakı ərazi tam aydın görünür. Düşmənin postları növbə çəkən əsgərlərimizin diqqətindən yayınmır. Baş leytenant Ələkbər Ələkbərli ilə elə müşahidə postunda görüşdüm. Zabit tabeliyində olan əsgərlərin xidmətinə ciddi nəzər yetirirdi.

Gənc zabit üç il Heydər Əliyev adına Hərbi Liseydə təhsil alandan sonra Ulu Öndərin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Motoatıcı ixtisası üzrə hərbi təhsilə yiyələndikdən sonra cəbhə bölgəsində xidmətə başlayıb. Erməni tapdağı altında olan torpaqlarımızı azad etmək üçün Vətən oğullarına döyüşün sirlərini öyrədir. Düşməndən qisas almaq üçün onlara vətənpərvərlik ruhu aşılayır. Mövqelərə boy verən səngərlər uzanır. Oğullarımızın müdafiə olunduqları bu istehkamları düşmən dəfələrlə aşmağa cəhd göstərsə də, açılan sərrast atəş onun arzusunu ürəyində qoyub.

Nəzərim daha bir döyüşçüyə kökləndi. O, başqalarına nisbətən təcrübəli görünürdü.

- Gizir Süleyman İsmayılov, - deyə döyüşçü özünü təqdim edir. Onunla qısa tanışlıq mənə xoş təsir bağışladı. Hərbçi olmaq onun da ən böyük arzusu olub. Beyləqan rayonundan olan döyüşçü həmişə tabeliyində olanlara qarşı tələbkardı. Ön xətdə yaradılan nizam-intizam və döyüş növbətçiliyinin yetərli təşkil olunmasında onun da əməyi az deyil. Baş leytenant Ə.Ələkbərli təcrübəli gizir haqqında bunları dedi:

- Gizir Süleyman İsmayılovu bir neçə ildir ki, tanıyıram. İntizamlıdır, tabeliyindəkilərə bilik və bacarıqlarını həvəslə aşılayır. Onun xidmət etdiyi post düşmənin lap yaxınlığında yerləşir. Döyüş növbətçiliyi yüksək tələblərə uyğun təşkil edilib. Gizirin xidmətləri komandanlıq tərəfindən dəfələrlə qiymətləndirilib.

Burada əsgərlər hər an sayıqdılar. Onlar günün istənilən vaxtı düşmənin təxribat törədəcəyini düşünür və buna görə də daim döyüş vərdişlərini artırırlar.

Postda görüşüb həmsöhbət olduğum əsgərlərin üzlərində məğrurluq var. Onlar ayıq-sayıqdırlar, heç vaxt ehtiyatlarını əldən vermirlər. Pulemyotçu əsgər Qasım Katibov Astara rayonundan hərbi xidmətə gəlib. Bir ildən artıqdır ki, düşmənlə qarşı-qarşıya dayanır. Əsgər deyir ki, düşmən günün istənilən vaxtı mövqelərə güllə atır. "Onlar bununla özlərinin varlığını göstərmək istəyirlər. Mən dərhal pulemyotu düşmənin atəş açdığı mövqeyə tuşlayıram. Çox keçmir ki, ermənilər atəşi dayandırmağa məcbur olurlar."



Əsgər Eşqin Məmmədəliyev söhbətimizə qoşulur:

- Düşmən bir neçə dəfə postumuza basqın etmək istəyib. Sayıqlığımız nəticəsində ermənilərin qarşısını vaxtında alırıq. Yağılara neytral ərazidən irəli keçməyə imkan vermirik. Düşmənə qarşı qətiyyətlə vuruşub hünər göstərməyə qadirik. Ermənilər gücümüzə bələddirlər. Heç vaxt məqsədlərinə nail ola bilməyəcəklər.

Postdakı əsgərlərin hər biri ölkəmizin müxtəlif bölgələrindəndir. Gədəbəyli Eşqin Məmmədəliyev, qusarlı Elşad Əhmədov, xaçmazlı Əmrah Fərzəliyev, şəmkirli Xəyal Həsənov, bakılı Zahid Şamilzadə və başqaları burada bir-birilərini tanıyıblar. Dostluqlarını bundan sonra da davam etdirəcəklərini dedilər...

Əsgər Xəyal Həsənov deyir ki, hər dəfə posta çıxanda düşmən mövqelərinin arxasında dağılmış kəndlərimizi görürəm. "Buna görə də ermənilərə nifrətim daha da artır. İnanıram ki, tezliklə işğala son qoyacağıq. İndi ayaq aça bilmədiyimiz torpaqlarda müharibədən əvvəlki həyat yenidən bərpa olunacaq. Sülh danışıqları bir nəticə verməsə, addımı biz atacağıq."

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Təcrübəli döyüşçü

*Dağlar qoynuna, Vətənimizi qoruyan, əmin-amanlığımızı təmin edən, milli şərəfimizin, qürurumuzun, qeyrətimizin təmsilçisi olan əsgər qardaşlarımızın yanındayam. Vətənin müdafiəçiləri, keşikçiləri ilə görüş hesabına ruhi sakitliyə qovuşmuşam. İçimə xəfif bir sakitlik çöküb...*



Haqqında söz açmaq istədiyim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Musa Kərimov işğalda olan torpaqlarımızı azad etmək, şəhid olan qardaşlarımızın qisasını almaq üçün ön xətdə xidmətdədir. Arzusuna çatmaq məqsədilə doğulub boya-başa çatdığı yurdun zirvəsində, dağların əlçatmazlığında qərar tutub… O, hesab edir ki, insan fərd kimi güclü olanda, vətəndaşı olduğu Vətən də basılmaz olur.

M.Kərimov düşmənin yerləşdiyi mövqeləri postda müşahidə edirdi. Gözünü düşmən mövqelərindən ayırmaq istəmədiyini hiss etsək də, onunla söhbət apara bilirik.

- Gözlənilməz anlarda, ən çətin məqamlarda təmkinli olmaq snayper üçün əsas şərtdir, - deyə Musa Kərimov sözə başlayır. - Əsas məqsədim hərbi qulluqçu kimi Vətənimin keşiyində durmaq, ikinci məqsədim isə snayper olmaq idi. Yuxarı komandanlığa müraciətim əsasında snayper hazırlığı kursu keçib, cəbhə bölgəsində torpaqlarımızı qorumaq şərəfinə nail olmuşam. Əldə silah hər an düşməni məhv etmək ehtimalı məsuliyyət hissimi daha da artırır.

Söhbət aparmağımıza baxmayaraq müsahibim fasilə verərək, bir anlıq müşahidəsini davam etdirir. Öz peşəsinin vurğunu və peşəkarı olduğunu hiss edirəm.

Nəhayət, Kərimov "Snayperin əsas keyfiyyətləri hədsiz səbr, ustalıqla maskalanaraq gözə görünməmək qabiliyyəti və hadisələri güclü intiusiyanın köməyi ilə öncədən təxmin etmək bacarığıdır," - deyə sözünə davam edir. "Snayper üçün sadəcə atəş açmaq azdır. Düzgün maskalanmağı, saatlarla hərəkətsiz qalmağı bacarmalısan. Snayperin bacarığı - ustalıqla düşmənin canlı qüvvəsini qiymətləndirmək, şəraitin əlverişli olub-olmadığını müəyyən etmək və hədəfi bir atəşlə yox etməklə ölçülür. Snayper nəinki düşmənin canlı qüvvəsini məhv etməli, həmçinin bir atəşlə düşmənin mövqelərində çaşqınlıq yaratmalıdır."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Musa Kərimov ölkəmizdə bütün sahələrdə inkişaf olduğu üçün, Silahlı Qüvvələrə göstərilən diqqət və qayğının artmasını fərəhlə bildirir. "Bu, hər birimizə düşmən üzərində qələbə qazanmaq üçün əlavə stimul verir. Biz gənclər çox şanslıyıq ki, doğma ordumuzun sıralarında müstəqil Vətənimizə xidmət edirik. Bu torpaqlar hər bir Azərbaycan vətəndaşınındır. Əli silah tuta bilən hər bir insan düşmənə sinəsini sipər etməlidir. Ürəyində Vətən eşqi olan hər bir azərbaycanlı bu şərəfli yolda hərbçilərin yanında olmalıdır."

... Ayrılıq vaxtı yetişir. "Qəhrəmanlarımızın sayı çoxdur", - düşünüb, Musa Kərimovdan xoş hisslərlə ayrılıram.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# "Əlləriniz var olsun"

## Bu sözləri cəbhə xəttində yerləşən hərbi bölmələrin birində əsgər yeməkxanasından çıxan hər kəsdən eşitdik



*Zabitlər də, əsgərlər də ləziz, dadlı yeməklərə görə mətbəxdə çalışan qadınlara "Çox sağ olun", "Əlləriniz var olsun" deyirdilər.*



Həmin gün günorta naharına biz də qonaq olmuşduq. Doğrudan da, bu yerlərdə 20 il xidmətim ərzində dəfələrlə olmuşam, amma belə müasir şəraiti və ürəkaçan xidməti heç zaman görməmişdim. Zabit İlham Fərzəliyev deyir ki, dövlətimizin, ordumuzun rəhbərliyinə minnətdar olmalıyıq ki, qısa vaxtda cəbhə xəttində də belə gözəl imkan, şərait yaradılıb.

"Bəlkə də qəzetinizdə bu şəkilləri görən elə fikirləşər ki, yəqin arxada olan hərbi bölmədir, amma belə deyil, bu gün hərbi hissəmizin düşmənlə təmas xəttində yerləşən bütün bölmələrində şəxsi heyətin nümunəvi xidməti üçün əlverişli imkanlar yaradılıb. Belə şərait isə Vətənimizin müdafiəsində dayanan gənclərimizə xoş ovqat, döyüş ruhu aşılayır".

Zabitin dedikləri ilə şərikəm, doğrudan da, insana diqqət və qayğı göstəriləndə, onun rifahı yaxşılaşanda, ürəyinə də təpər gəlir və göstərilən etimadı doğrultmağa səy göstərir.

Ən müasir şəraitə malik olan əsgər yeməkxanasında iştahla nahar etdikdən sonra mətbəxə keçib burada çalışan ana-bacılarımızla görüşürük. Hamı kimi, biz də təşəkkürümüzü bildirib, onların bir neçəsi ilə həmsöhbət oluruq. Kifayət və Aybəniz İsmayılova bacıları aşpazdırlar, yaxın kəndin sakinləridir. Kifayət xanım deyir ki, el-obamızın, Vətənimizin keşiyini çəkən, soyuq havalarda sinəsini düşmənə sipər edib əmin-amanlığımızı qoruyan oğulları xidmətində dayanmaq, hər gün onlara keyfiyyətli yeməklər hazırlamaq hər şeydən əvvəl bir vətəndaş borcumuzdur. "Mənə elə gəlir ki, hər kəs öz peşəsi çərçivəsində üzərinə düşən borcun məsuliyyətini dərk edirsə, bu Vətənə xidmət nümunəsi deməkdir. Bu torpağın keşiyində dayanan əsgərlərin hər biri mənə öz övladlarım kimi doğmadır. Az yaşım yoxdur, bu ərazilərdə xidmət edən əsgərlərin o qədər çətinliklərini görüb eşitmişəm ki. Amma bu gün belə deyil. Sağ olsun cənab Prezidentimiz, məhz onun qayğısı sayəsində doğma ordumuz gündən-günə güclənir. Hiss edirəm ki, hamı orduda ürəklə xidmət edir, əsgər oğullarımıza əmr veriləndə, onlar düşməni torpaqlarımızdan qovub çıxaracaqlar".

Fürsətdən istifadə edib nahardan qayıdan əsgərlərlə də görüşüb ürək sözlərini qələmə alırıq. Elman Alışanov, Murad Bağırov, Orxan Qəhrəmanov, Məlik Qasımov və başqaları hər gün burada iştahla nahar etdiklərini, hər yerdə yüksək məişət şəraitinin yaradıldığını deyirlər. "Valideynlərimiz bəzən yanımıza gələndə evdəki yeməklərdən gətirirlər. Amma əlimizi vurmuruq, axı ehtiyacımız yoxdur, elə burada da hazırlanan yeməklər evimizdə olduğu kimi dadlı, ləzzətlidir," - deyir əsgərlərimiz. Sonda bir ağızdan onu da bildirirlər ki, dövlətimizin, xalqımızın belə yüksək qayğısına cavab olaraq son nəfəsimizədək döyüşməyə, Vətənə canımızı fəda etməyə hazırıq.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---

*Nümunəvi xidmət*

# "Vətənə xidmət müqəddəs borcdur"

*Əsgər Kənan Sarıyev Ağstafa rayonunda dünyaya göz açıb. Ordu sıralarına 17 ay öncə qatılıb. Nümunəvi xidmət edən əsgərlər haqqında yazı hazırlamaq istədiyimi bildirəndə ilk olaraq adı çəkilənlərdən biri də Kənan oldu.*



Komandirin nümunəvi əsgər haqqında dediyi sözlərdən sonra onunla həmsöhbət olmağa can atırdım. Nəhayət, Kənan Sarıyevlə döyüş mövqeyində görüşüb tanış olduq. Öyrəndim ki, orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağırılıb.

- Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur, - deyə əsgər söhbətə başladı. - Gərək biz bu borcu şərəflə, ləyaqətlə yerinə yetirək. Əynimizdə forma, əlimizdə silah, ürəyimizdə sevgi, gözümüzdə düşmənə nifrət var. Məsuliyyətimizi dərk edib ayıq-sayıq olmalı, üzərimizə düşən tapşırıqları canla-başla yerinə yetirməliyik. Xidmət müddətimdə hərbi texnikanın və silahların sirlərini mükəmməl öyrənməyə, döyüş hazırlığımı artırmağa çalışmışam. Tərxis olunmağıma az qalıb, lakin istənilən vaxt döyüş başlayarsa, Vətənimizin ərazi bütövlüyü uğrunda savaşa qalxmağa söz verirəm.

Həyatının ən önəmli günlərini yaşadığını deyən əsgər söhbətinin sonunda xüsusi olaraq qeyd etdi ki, hərbi xidmətimi ləyaqətlə başa vuraraq, valideynlərimin yanına alnıaçıq, başıuca qayıdacağam.

Bəzi insanlar sözü, bəziləri hərəkəti, bəziləri də görünüşü ilə yaddaşa həkk olunur. Kənan isə yaddaşımıza Vətənə sonsuz sevgisi ilə yazılır.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

---

*Təlim*



# Qələbəyə inam

Ölkəmizin iqtisadi qüdrətinin artması hərbi sahədə böyük irəliləyişə şərait yaradıb. Hərbi qulluqçular üçün yeni şəhərciklər, təlim mərkəzləri yaradılıb. Aparılan islahatların bəhrəsidir ki, qarşıya qoyulan döyüş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilir. Keçirilən təlimlər göstərir ki, Silahlı Qüvvələrin bütün qoşun növləri yüksək döyüş hazırlığına malikdir.

Raket-artilleriya qoşunları sırasında həmişə fərqlənən "N" hərbi hissəsinin şəxsi heyəti də göstərilən etimadı həmişə doğruldur. Zabit Mansur İbadov vurğulayır ki, şəxsi heyətin əsas məqsədi döyüş hazırlığını təkmilləşdirməklə və peşəkarlığı artırmaqla, Ali Baş Komandanın döyüş əmrinə hər zaman hazır olmaqdır.

Aprelin əvvəllərində düşmən təxribatının qarşısının qətiyyətlə alınması göstərdi ki, artilleriyaçılarımız da ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüşə hazırdırlar. Topçular Vətən torpaqlarının bir hissəsinin düşməndən azad edilməsində əsl fədakarlıq göstərdilər. Aprel döyüşləri düşmənə dərs oldu. Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev cəbhə bölgəsində bunu bir daha bəyan etdi: "Onlar doğru-düzgün nəticə çıxarmasalar, torpaqların işğalı davam etdirilərsə, aprel dərslərinin sayı artacaq, torpaqlarımızı işğaldan azad edəcəyik."

Xidmətdə daha çox fərqlənənlərdən söz düşəndə gizir Xəqani Mirzəməmmədovun komandir olduğu top heyətinin adı tez-tez çəkilir. Vətənə xidməti ömrünün mənası sayan gizirin əməyi həmişə yüksək dəyərləndirilib. Fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüb. Top komandiri kimi vəzifəsinin öhdəsindən gələn X.Mirzəməmmədov heyətiylə birgə döyüş tapşırıqlarına müntəzəm əməl edir. Aprel döyüşləri isə onlar üçün əsl sınaq olub. Düşmənə sarsıdıcı zərbələr endirilməsində əsl igidlik, rəşadət göstəriblər. Topçular Vətən uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman oğulları heç vaxt unutmurlar. Baş tuşlayıcı Cəmaləddin Əliyev, heyət nəfərləri Anar Şeydayev, Elşən Hüseynzadə, İlham Məmmədəliyev, Azər Həsənov, Elmir Əliyev də komandanlıq tərəfindən fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüblər. Əsgər Elmir Əliyev ordu sıralarında xidmətini başa vurduqdan sonra yenidən ordu həyatına qayıdıb. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. O bildirdi ki, göstərilən etimadı doğrultmaq ən böyük amalıdır.

Xidmətdə fərqlənən gənc zabitlərdən Oruc Şəmmədov Ulu Öndərin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir və bununla qürur hissi keçirdiyini söyləyir. Bildirir ki, Ulu Öndər zabit peşəsinə həmişə yüksək qiymət verərək: "Zabit peşəsi ən şərəfli peşədir. Bu peşəni seçənlərə xalqımız həmişə minnətdar olacaqdır", - deyirdi.

Füzuli rayonundan olan Oruc Sərvaz oğlu doğma torpaqlarının ordumuzun gücü ilə tezliklə düşməndən azad olunacağına inam ifadə edir. "Aprel döyüşləri də bu istəyimizi bir daha bütün dünyaya göstərdi. Məlum oldu ki, xalqımız gündən-günə qüdrətlənən ordumuzla Vətən torpaqlarını düşmənlərdən azad edəcək."

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Ömür yolu örnək olan insanlar xalqın sərvətidir







*Hərbi musiqi sənətimizin korifeyi general-mayor Yusif Axundzadə haqqında yazı hazırlamaq üçün tapşırıq alandan sonra onun ünvanına yola düşürəm.*

Birinci dəfə 2006-cı ildə görüşmüşdüm onunla, o da təsadüfi olmamışdı. Bir axşam televizorda "Xəbərlər"ə baxanda dövlət başçısının Müdafiə Nazirliyi Hərbi Orkestrində çalışan hərbi qulluqçuların əmək haqqının artırılması haqqında sərəncamından xəbər tutdum. Bu hadisədən bir neçə gün sonra Yusif müəllimlə görüşüb qəzetimizə yazı hazırladım. Yazının sərlövhəsi də indiki kimi yadımdadır: "Prezident qayğısı". Yusif müəllim danışırdı ki, bir dəfə hava limanında dövlət rəhbərlərindən birini qarşılamaq üçün yığılmışdıq. "Bu zaman gözləmədiyim halda Prezident, Ali Baş Komandanımız cənab İlham Əliyev mənə yaxınlaşdı. Hal-əhval tutandan sonra şəxsi problemlərim, qayğılarımla maraqlandı. Nəyə ehtiyacımın olduğunu soruşdu. Mən isə Hərbi Orkestrimizdə çalışan peşəkar gənc musiqiçiləri göstərib, onların maaşını bir qədər artırmağı xahiş etdim. Prezident köməkçisini çağırıb göstərişini verdi və bir gün sonra bu haqda sərəncamdan xəbər tutduq".

Yusif müəllim deyirdi ki, Prezidentlə həmin söhbətdən ayrılıb kollektivimizə yaxınlaşanda hamının sifətində sevincdən, fərəhdən yaranan göz yaşlarını gördüm. "Həmin anlarda özümü o qədər xoşbəxt sandım ki. Uçmağa qanad istəyirdim. Axı nə qədər adama, neçə ailəyə yaxşılığım dəymişdi".

Düz 10 ildən sonra yenə onunla kabinetində görüşürəm. Keçən il 70 yaşı ölkə səviyyəsində qeyd edilmişdi. Amma heç ona bu yaşı verməzsən. O qədər gümrah, çevik görünür ki. Bir dəfə oxuduğum kitablardan birində öyrənmişdim ki, insan xoşbəxtliyinin sirrini zəhmətdə, əməkdə axtarmalıdır. Doğrudan da, zəhmət insanı ucaldır, adam çalışmaqdan, işləməkdən usanmırsa, xalqına, dövlətinə xidmətdən ruhlanırsa, sanki ömrü də uzanır. İlahi belə adamlara böyük ömür bəxş edir. Otağına göz gəzdirirəm, generalın müxtəlif illərdə aldığı mükafatlar diqqətimi cəlb edir. Onun böyük titulları var: Xalq artisti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, neçə-neçə mükafatın sahibi, professor və ən başlıcası - general Yusif Axundzadə.

Tanınmış adamlara çox vaxt ünvanladığım sualla ona da müraciət edirəm:

- Yusif müəllim, həyatda qazandıqlarınıza görə ilk növbədə kimə minnətdarsınız?

- Anama. Varlığımın, uğurlarımın sirri ondadır. Heç ağlıma gətirməzdim ki, musiqiçi olaram. Uşaqlıqdan futbolu çox sevirdim, məhləmizdə dostlarımla futbol oynamaqdan yorulmazdım. 7-ci sinifdə oxuyanda bir gün anam əlimdən yapışıb məni Bülbül adına orta ixtisas musiqi məktəbinə gətirdi...

Beləcə, böyük bir ömrün cığırları açılır. 1992-ci ilin qızmar yay günündə isə Yusif Axundzadə Müdafiə Nazirliyində yaradılmış Hərbi Orkestr Xidmətinə rəis təyin olunur. Məhz o gündən Azərbaycanda hərbi musiqi sənəti tamamilə yeni bir mərhələyə qədəm qoyur. Ürəyi Vətən sevgisi ilə döyünən hər kəs kimi, Yusif müəllim üçün də qürurverici olur ki, müstəqil Vətənimizin yeni formalaşmaqda olan ordusuna öz töhfəsini verməyə başlayır. Bu müqəddəs yolun başlanğıcında nə qədər çətinliklərlə üzləşsə də, heç vaxt ruhdan düşmür, əksinə, böyük həvəslə, sevgiylə Vətənimizə xidmətini davam etdirir. Ətrafına peşəkar musiqiçiləri toplayıb səmimi bir kollektiv yaradır. Və bu kollektivin əməyi Müdafiə Nazirliyinin tədbirləri ilə yekunlaşmır, dövlət tədbirlərində, rəsmi qonaqların qarşılanması mərasimlərində iştirak edirlər. Ulu öndərimiz Heydər Əliyevlə, həmçinin onun siyasi kursunun layiqli yetirməsi, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevlə bağlı xatirələri isə bitib tükənməzdir. Masasının üzərindəki bir kitab da diqqətimi çəkir. "General Yusif Axundzadə" adlı kitab görkəmli musiqiçinin ömür yoluna və fəaliyyətinə işıq salır. Kitabın ilk səhifəsi Ümummilli Liderimizin sözləri ilə açılır: "Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər. Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla fəxr etmişəm." Dahi rəhbərimizin sözləri həm də hərbi musiqi sənətimizin korifeyi olan general Yusif Axunzadəyə aiddir. Yeri gəlmişkən, qeyd edim ki, o həm də Bakı Musiqi Akademiyasının professorudur, pedaqoji fəaliyyəti dövründə bir çox elmi araşdırmaların müəllifi olub, yüzlərlə layiqli yetirməsi vardır.

Bu yaxınlarda ustad musiqiçimiz böyük türk dünyasının ən nüfuzlu təşkilatlarından olan "TÜRKSOY" tərəfindən medalla təltif edilib. Yeni bir mükafata layiq görüldüyünə görə Yusif müəllimi oxucularımız adından təbrik edir, ona cansağlığı və uzun ömür arzulayırıq.

"Özümü xoşbəxt insanlardan sanıram, çünki Vətənimə, xalqıma həsr olunan mənalı bir ömür sahibiyəm", - deyən generalın bir xoşbəxtliyi də ondadır ki, ailədə onun davamçısı var. Yusif müəllimin oğlu mayor Rüfət Axundzadə Müdafiə Nazirliyi Hərbi Orkestrinin rəisi olaraq atasının yolunu inamla davam etdirir. Şübhəsiz, Rüfət də bu yolda böyük uğurlar qazanacaq və fəth edəcəyi zirvələrdən haçansa yaşadığı illərə nəzər salanda "Həyatda qazandıqlarıma görə atama minnətdaram" deyəcək.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Gənc zabitlərimiz*

# Bacarıqlı komandir

*Baş leytenant Cahangir Eyvaz oğlu Eyvazov Naxçıvan Muxtar Respublikasında sadə bir ailədə anadan olub. Uşaq yaşlarından hərbi xidmətə həvəs göstərən Cahangir orta məktəbi bitirdikdən sonra zabit olmaq istəyini valideynlərinə bildirdikdə atası xeyir-duasını verib, övladının bu qərarından fəxr hissi keçirib.*



Gələcəyin zabiti öz taleyini heç bir tərəddüd keçirmədən müəyyən edib və 2006-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənədlərini verib. Burada ilk hərbi təhsilini aldıqdan sonra 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və motoatıcı ixtisası üzrə təhsil almağa başlayıb. Leytenant hərbi rütbəsini aldıqdan sonra isə "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb.

Komandir olaraq şəxsi heyətin döyüş vərdişlərini artırmaq üçün bilik və bacarığını əsirgəmir, tabeliyindəkilərə Vətənə məhəbbət, işğalçılara isə nifrət hissi aşılayır. Onun bölməsi həmişə hərbi hissədə öz intizamı, hazırlığı ilə seçilir və nümunə göstərilir.

Cahangir və komandiri olduğu taqım hər an Ali Baş Komandanın əmrinə hazırdı. Aprelin əvvəllərində olduğu kimi. Azğınlaşmış erməni bölmələrinə qarşı əməliyyat keçiriləndə baş leytenant Cahangir Eyvazov da taqımı ilə döyüşə atılmışdı.

Ermənilər işğal edilmiş Azərbaycan torpaqlarından həm təmas xəttində ordumuzun bölmələrini, həm də yaxınlıqdakı yaşayış məntəqələrimizi atəşə tuturdu. Nəticədə dinc sakinlərin arasında tələfat olur, soydaşlarımızın evlərinə zərər yetirilirdi.

Hər bir vətənpərvər azərbaycanlı kimi baş leytenant Cahangir Eyvazov da düşmənin bu azğınlığının qarşısının alınmasını, torpaqlarımızın işğaldan təmizlənməsini ürəkdən istəyir, əmrin veriləcəyi günü səbirsizliklə gözləyirdi.

Nəhayət, aprelin ilk günlərində düşmənə cavab vermək üçün dəyərli imkan oldu və Silahlı Qüvvələrimizin bölmələri güc nümayiş etdirdi. Kənd və qəsəbələrimizi təhlükə altında saxlayan bəzi yüksəkliklər ordumuzun nəzarətinə keçdi.

Aprel döyüşlərində iştirak edən hər bir ordu nümayəndəsi, o cümlədən hər bir azərbaycanlı qələbəmizdən fəxr hissi duyur. Yüzlərlə döyüşçümüz tapşırığı yerinə yetirmək üçün irəli atılmış, qorxmazlıq və şücaət göstərmişdi.

Baş leytenant Cahangir Eyvazov və onun timsalında mətin oğulları Vətənə sədaqəti, şücaəti və bacarığı işğalda olan torpaqlarımızın azad olunacağı günün yaxında olmasından xəbər verir.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir

*Ordu peşəkarları rabitə xidmətinin əsas üstünlüklərini qeyd edərkən deyirlər ki, rabitəsiz döyüş yoxdur. Döyüş rabitə ilə idarə olunur. Bu xidmətin əsas şərti davamlı rabitənin yaradılmasıdır. Rabitə xidmətinin yerinə yetirilməsi bu sahədə çalışan şəxsi heyətdən yüksək peşəkarlıq və məsuliyyət tələb edir. Bu baxımdan rabitə xidmətinə təcrübəli, dəqiq və savadlı əsgərlər cəlb olunur.*



Cəbhə bölgəsindəki "N" hərbi hissəsində rabitə xidmətinin təşkili ilə maraqlanıram. Məlumat üçün bildirim ki, bu hərbi hissə Silahlı Qüvvələrimizin ilk hərbi hissələrindən biridir və düşmənlə mübarizədə uzun döyüş yolu keçib.

Biz rabitə otağına daxil olanda orada gərgin iş gedirdi. Əsgər Anar Abasov rabitə qurğusunu nizamlayır, zənglərə cavab verir və əlaqə yaradırdı. Xidmətini böyük həvəslə yerinə yetirən əsgər deyir ki, hər kəs sevdiyi peşəsi ilə məşğul olanda özünü o peşədə təsdiqləyir. "Bakı şəhəri Qaradağ rayonundan hərbi xidmətə çağırılmışam. Orta məktəbi başa vurduqdan sonra rabitəçi sənətinin sirlərinə yiyələnmək üçün sənədlərimi Bakı Rabitə və Nəqliyyat kollecinə verdim. Yüksək göstəricilərlə tələbə adını qazandım. 2015-ci ildə həmin kolleci başa vurub rabitə sahəsində əmək fəaliyyətinə başladım. Qaradağ Telefon Qovşağında 4-cü dərəcəli elektrik vəzifəsində çalışdım. İşlədiyim müddətdə rabitə sənətinin bütün incəliklərini öyrəndim, bu vacib sahənin sirlərinə yiyələndim. Ona görə də bu gün heç bir çətinlik çəkmədən işimin öhdəsindən yüksək səviyyədə gəlirəm. Hazırda rabitə bölüyünün telefon taqımında mexanik telefonçuyam", - Anar deyir.

Rabitəçi peşəsinə dərin marağından söhbət açan əsgər bu peşənin vacib tərəflərini də bizə söylədi: "Rabitədə daim fasiləsiz əlaqə olmalıdır. Bunun üçün də məsuliyyətlə çalışmalı, bütün diqqətin, fikrin gördüyün işin üzərində cəmlənməlidir".

Öyrənirəm ki, nümunəvi rabitəçi fəxri fərmanla mükafatlandırılıb, valideynlərinə təşəkkür məktubu göndərilib.

Kapitan Azər Nəcəfov da söhbətində hərbi hissədə rabitə xidmətinin uğurla aparılmasından, bu sahədə avadanlıqların hər zaman saz, işlək vəziyyətdə olmasından danışır: "Döyüş hazırlığımızın, bilik və bacarığımızın artırılmasına çalışırıq. İşimizdə heç bir çətinliyimiz yoxdur. Çünki xidmət peşəkar rabitəçilər tərəfindən aparılır. Rabitə sahəsində nə qədər nəzəriyyəni mənimsəsən də, daha çox təcrübəni artırmalısan. Ordu sıralarına yeni gələn əsgərlərə bu peşənin sirlərini dərindən aşılamağa çalışırıq. Gərək onlar rabitənin sirlərini yaxşı öyrənsinlər ki, bacarıqlı mütəxəssis olsunlar."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr



## "Bastion" sahil raket kompleksi

"Bastion" gəmiəleyhinə sahil raket kompleksidir. Kompleks müxtəlif sinifli sualtı qayıqları və desant birləşmələrinin tərkibindən olan növləri, aviadaşıyıcı və gəmilərin zərbə qruplarını, konvoyları, həmçinin atəş və radioelektron qarşıdurma şəraitində gəmilərin və yerüstü hədəflərin məhv edilməsi üçün təyin edilib. Silahlanmaya 2010-cu ildə qəbul edilib. "Bastion"un iki modernləşdirilmiş hərəkət edən "Bastion-P" və şaxtada yerləşdirilmiş stasionar "Bastion-S" variantları mövcuddur.

"Bastion-P" kompleksinin tərkibinə nəqliyyat-buraxıcı konteynerində gəmiəleyhinə "Yaxont" raketi, heyəti üç nəfərdən ibarət olan özüyeriyən buraxıcı qurğu, döyüşü idarəetmə maşını, baş komanda məntəqəsi ilə PBRK döyüş sursatlarını idarə edən komanda məntəqəsini birləşdirən texniki-informasiya aparatı, avtomatlaşdırılmış döyüşü idarəetmə sistemi, texniki-xidmət kompleksi, nəqliyyat-təchizat maşını, döyüş növbəsini təmin edən maşın, təlim-məşq kompleksi, hədəfgöstərici helikopter kompleksi daxildir. Kompleks hava və suüstü hədəfləri aşkar etmək üçün horizontarxası radiolokasiya sistemi ilə də təchiz oluna bilər.

"Bastion-P" kompleksinin tərkibinə "Yaxont" raketi üçün iki nəqliyyat buraxıcı dəzgahı olan dörd özüyeriyən buraxıcı qurğu, heyəti üç və beş nəfər olmaqla iki döyüşü idarəetmə maşını, bir döyüş növbəsini təmin etmə maşını daxildir.

Maksimal döyüş kompleksi 24 PKR (gəmiəleyhinə raket), döyüş vəziyyətinə gətirilməsi 5 dəqiqə, köməkçi vasitələr olmadan avtonom döyüş növbəsi 24 saat təşkil edir, sahilyanı mühafizəsi 600 kilometrdən çox məsafəni əhatə edir (düşmənin desant əməliyyatlarından tutmuş). Təyin edilmiş istismar müddəti 10 ildir.

İlk stasionar gəmiəleyhinə "Bastion-S" kompleksi 2020-ci ildə Krımda yerləşdiriləcək. Onun tərkibinə pilotsuz uçan aparatların və sualtı hidroakustik stansiyanın daxil edilməsi də nəzərdə tutulub. Bu komplekslərin tam yenidən silahlanması 2017-ci ildən 2021-ci ilə qədər planlaşdırılıb.

## "Hermes 450" pilotsuz uçuş aparatı

"Hermes 450" çoxməqsədli pilotsuz uçan kəşfiyyat aparatıdır.

İsrailin Silver Arrow şirkəti tərəfindən hazırlanıb.



İlk uçuşu 1994-cü ildə həyata keçirilib, 2000-ci ildən istismardadır. "450" indeksi aparatın maksimal uçuş çəkisini göstərir. Onun faydalı yükü 150 kiloqram təşkil edir. "Hermes 450" aparatının iki mühərrikli variantında mühərrik konteynerdə qanadların altında yerləşdirilib. Bir mühərrikli 450S versiyasında isə mühərrik quyruq hissəsindədir. Avtopilotu GPS qəbuledicisindən istifadə etməklə tam şəkildə işləyir. Başqa hallarında isə hesablama rejiminə keçir, bu da onun sinxron siqnallarını saxlamağa imkan verir. Aparatda iki naviqasiya kompüteri, iki rabitə və ələvə ehtiyat sistemləri də vardır. Operator tərəfindən aparat ancaq uçuş və enmə zamanı idarə olunur.

"Hermes 450" kəşfiyyat aparatı elektrooptik, infraqırmızı və lazer göstəricisi, həmçinin mübadilə məlumat sistemi ilə təchiz edilib ki, bu da təsvirləri yerüstü idarəetmə məntəqəsinə ötürməyə imkan verir.

2008-ci ilin əvvəlində "Hermes 450" aparatları üçün çəkisi 50 kiloqrama qədər olan yeni rotor mühərriklər hazırlanıb. Geniş həcmli yanma kamerası vardır ki, bu da onu 70 at gücünə çatdırmağa, 20 saatdan artıq uçuşu davam etdirməyə imkan yaradır. "Hermes 450" uçuş aparatı müşahidə aparmaq, havada keşik çəkmək, kəşfiyyat aparmaq və səhra şəraitində rabitə sistemlərinə dayaq durmaq üçün nəzərdə tutulub. Bəzi məlumatlara görə isə "hava-yer" raketlərini də daşıya bilər.

"Hermes 450" pilotsuz uçan kəşfiyyat aparatının sürəti saatda 176 kilometr, uzunluğu 6,10 metr, hündürlüyü isə 1,80 metrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusuna məxsus "F-16" qırıcı təyyarəsi qəzaya uğrayıb



Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus "F-16" qırıcı təyyarəsi dekabrın 12-də axşam saatlarında ölkənin Diyarbəkir Hərbi Hava Meydanına yaxın ərazisində qəzaya uğrayıb.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının məlumatına görə, təyyarənin qəzaya uğraması təlim uçuşu zamanı baş verib. Qəza zamanı paraşütlə tullanan pilotun vəziyyəti normaldır. Hadisə ilə bağlı istintaq aparılır.

## İran hərbi təlimlər zamanı yeni silahlarını nümayiş etdirib



İran ordusunun keçirdiyi "Məhəmməd Rəsulallah" adlı hərbi təlimlərdə yeni silah növləri nümayiş etdirilib.

Təlimlər zamanı İran ordusunun quru qoşunlarının istifadəsinə yerli istehsal olan yeni pilotsuz kəşfiyyat təyyarəsi verilib. "Farpad" adı verilən pilotsuz təyyarə 45 dəqiqəlik uçuşu müddətində diapazonu 20 kilometr olan ərazini müşahidə etmək, videogörüntü çəkib internet vasitəsilə mərkəzə ötürmək imkanına malikdir.

Bundan başqa, orduya təqdim edilən "Tufan" raketi sınaqdan keçirilib. Ordunun piyada qoşun hissəsinə yeni snayper tüfəngi də təqdim edilib. Bu tüfənglə 1200 metr məsafədəki hədəfi dəqiq vurmaq olur.

Xatırladaq ki, dekabrın 11-dən başlayaraq İran ordusu hərbi təlimlərə başlayıb.

## Somalidə terror aktı nəticəsində azı 20 nəfər ölüb



Dekabrın 11-də Somalinin paytaxtı Moqadişo şəhərində avtomobilə quraşdırılmış bombanın işə düşməsi nəticəsində 20-dən çox adam həlak olub.

Ölənlərin əksəriyyəti mülki şəxslərdir.

Terror aktına görə məsuliyyəti "Əş-Şəbab" terror qruplaşması öz üzərinə götürüb.

## Terror aktları barədə saxta məlumat yayan şəxs yaxalanıb



Praqa polisinin mətbuat katibi Jan Danekin verdiyi məlumata görə, asayiş keşikçiləri partlayıcı qurğu yerləşdirilməsi barədə yeddi dəfə 158 təcili xidmət xətti vasitəsilə saxta məlumat verməkdə şübhəli sayılan 39 yaşlı şəxsi yaxalayıblar. Həmin məlumatlara görə, Praqanın əsas vağzalı təxliyə edilib, dəmir yolunda hərəkət isə təxminən bir saat dayandırılıb. Polis metropolitenin fəaliyyətini məhdudlaşdırmaq məcburiyyətində qalıb. Yaxalama zamanı şübhəlinin qanında iki promildən çox alkoqol aşkar edilib. Şübhəlinin on üç dəfə, o cümlədən vahimə yaradan məlumatları qəsdən yaymağa görə məhkum edilib.

## İŞİD yaraqlıları Kərkükdə 17 dinc sakini öldürüb



İŞİD terror qruplaşmasının yaraqlıları İraqın Kərkük vilayətinin Əl-Xuveycə şəhəri yaxınlığındakı düşərgədə 17 dinc sakini qətlə yetiriblər.

Sakinlər casusluq və hökumət qüvvələri ilə əməkdaşlıq etdikləri üçün cəzalandırılıb. Edam qərarı terrorçuların şəhərdə yaratdıqları "şəriət məhkəməsi" tərəfindən çıxarılıb.

Əl-Xuveycə şəhəri də daxil olmaqla, Kərkük vilayətinin cənub-qərb əyalətləri 2014-cü ilin iyunundan İŞİD-in nəzarətindədir. O vaxtdan indiyədək həmin ərazilərdən 150 mindən çox insan hökumət qüvvələrinin nəzarət etdikləri yerlərə qaçıb.

**AZƏRTAC-ın materialları əsasında**

# "Polşada Azərbaycan qəhrəmanları" adlı kitabça nəşr edilib




Polşada Azərbaycanlı Gənclər Şurasının dəstəyi ilə "Polşada Azərbaycan qəhrəmanları" adlı kitabça nəşr edilib.

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, kitabçada iki azərbaycanlı qəhrəman haqqında məlumat verilir. İngilis dilində nəşr olunan kitabça 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti ordusu, 1923-1945-ci illərdə Polşa ordusu sıralarında xidmət etmiş polkovnik Vəli bəy Yadigar və Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyev haqqındadır.

Bu barədə məlumat verən Polşada Azərbaycanlı Gənclər Şurasının baş katibi Rəsul Məmmədov həmçinin qeyd edib ki, qısa zamanda kitabçanın polyak dili versiyası da nəşr olunacaq. R.Məmmədov kitabçanın Azərbaycan və Polşa dövlətləri arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə verilən kiçik töhfə olduğunu bildirib.




*Mənə gülləri göstərdilər. Hər gün gördüyüm güllərdi. Onları indiki qədər duyğulandırıcı görməmişdim. Ləçəklərində bir kövrəklik hiss elədim. O nə görkəmiydi? Görəsən, gözəlim güllər diqqət yetirmədiyimizə görəmi gileyliydi?..*

Elə bil heç görməmişəmmiş. Baxdıqca baxdım. Göz açıb-yumunca könlüm bir kövrəkliyin əsiri oldu - ilin-günün bu vaxtında dağlar yadıma düşdü, səngərlər, səngərlərdəki əsgərlərimiz yadıma düşdü. Tovuzda - Adsız yüksəklikdə, Gədəbəydə - Alagöllərdə, Murovdağda səngərlərin yan-yörəsində gördüyüm gülləri, asudə vaxtda gül dərən əsgəri xatırladım, o əsgərin kövrək, kövrək olduğu qədər də qətiyyətli baxışları məni onda varımdan yox eləmişdi. O əsgər gül dərə-dərə nəyi xatırlayırdı, bilməmişdim. Mənə elə gəlmişdi ki, işğalın son nəfəsini arzulayır, könül xoşluğuyla gül dərə biləcəyi günü arzulayır...

1992-ci ilin yazında Zəngilanda ezamiyyətdəydim. Şükuratazda ləçəkləri yaralanmış bir neçə nərgiz görmüşdüm, nərgizlərə baxan, yaralanmış ləçəklərə sığal çəkən əsgərin baxışlarını kükrədən, daşdıran qəzəbi görmüşdüm, kükrəməyə, daşmağa meyilli baxışlara dirsəklənən qətiyyəti görmüşdüm. Onda avtomatın qundağını sıxan kapitan Mehman Hüseynovun qaşlarının çatıldığı da diqqətimdən yayınmamışdı...

Alagöllərdə əsgər yataqxanasında hər əsgərin başı üstündə bir dəstə dağ çiçəyi vardı. Hələ dərilməmiş çiçəklərin Vətən sevgisinə qarışan ətrini heç yerdə duymamışdım. O çiçəklərin ləçəklərinin tərpənişi mənə mötəbər bir mətləb anlatmışdı: əsgər səngərin ürəyidi, səngər əsgərin. Bəs biz? - yayın yay günü düşüncələrim titrəmişdi...

Ürəyim gözəlliyə həmişə açıq olub. Uzaq düşəndə ətrinə qəribsədiyim güllər-çiçəklər könlümdən iraq düşməyib... Gülləri-çiçəkləri sevmişəm, duruşunu gözlərimə, gözlərimdən könlümə köçürə-köçürə bənzəri olmayan könül xoşluğu yaşamışam...

Döyüş bölgələrində, səngərlərimizin həndəvərlərində gül görəndə könlümdə başaçılmaz duyğular tərpənişib. Güllərə-çiçəklərə baxmışdım, gözaltı o gülləri də qoruyan əsgərlərə də. O gülləri-çiçəkləri dərməyə əlim gəlməmişdi, dərə bilsəydim, döyüş növbətçiliyindəki əsgərə verərdim...

İlkin yaza gül-çiçək gəlişli olduğu üçün vuruluruq; ilkin yazın hüsnünə baxdıqca baxırıq - doymuruq. Doymadığımız, doya bilmədiyimiz ilkin yazın şahanə gəlişi duyğularımızı çiçək-çiçək, ləçək-ləçək gülləndirir, ürəyimizi təllendirir...

Gülləri-çiçəkləri sevirik də, dəririk də, sevdiklərimiz keçəsi yollara səririk də. Ümid kimi, etibar, sədaqət kimi. Dərdiyimiz, dərib də sevdiklərimizin yollarına sərdiyimiz güllər-çiçəklər dilmancımız olur...

Güllərə baxıram. Güllər üzümüzə gələn yazda daha ətirli, daha təravətli olacaq. Üzümüzə gələn yazda dərəcəyimiz güllər-çiçəklər ümidimizin, inamımızın gülləri-çiçəkləridi. Onların üstündə "yarpaq kimi əsirik", onları torpaq kimi, ocaq kimi əzizləyirik, onları ruhumuza üzərlik bilirik; sevgimizi yaşadır deyə, sevgimizdə yaşayır deyə...

Üzümüzə gələn yaz gül-çiçək dərəcəyik, yollara sərməyəcəyik. Üzümüzə gələn yaz dərəcəyimiz güllər-çiçəklər qalib əsgərlərimizin sinəsinə sığınacaq. O gülləri-çiçəkləri biz dərəcəyik, qalib əsgərlərə yollar boyunca biz verəcəyik.

Bu güllər-çiçəklər "Zəfərin mübarək!" deyənlərin əllərində bayrağa dönəcək. Onda çiçək-bayraqların titrəyişini ürəyimizdə hiss edəcəyik. Onda dünyamız nərgizləşəcək, bənövşələşəcək, ətirşahlaşacaq, ...

Üzümüzə gələn yaz işğalın son yazı olacaq; 23-24 il ləngiyən yaza sarılacağıq...

Nə vaxtdan bəri hər gün gördüyüm gülləri göstərdilər mənə. Elə bil heç görməmişəmmiş. Baxdıqca baxdım. Dağlar yadıma düşdü. Dağlarda döyüş növbətçiliyində dayanan əsgərlərimizi xatırladım...

Bu gülləri də üzümüzə gələn yazda dərəcəyimiz güllər kimi qalib əsgərlərimizə verəcəyik...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Redaksiyamızın poçtundan*

# Qürurlanıram!..



"Mən azərbaycanlıyam!". Qürurla səslənən bu fikir ulu öndərimiz Heydər Əliyevə məxsusdur. İndi hər birimizin ömür kəlamımızdır...

Orta məktəbdə oxuyanda da, indi də qürurun nə olduğunu bu kəlamın işığında görmüşəm. Azərbaycanlı olmağın qürurunu bu kəlamdan öyrənənlərdən biri də mənəm.

Tarixi keçmişimizi sevmişəm, onunla qürurlanmışam...

Dünyəvi əsərləri dünyanı heyrətləndirən böyük Nizami Gəncəviylə qürurlanmışam, "ahıyla fələkləri yandıran" Füzuliylə qürurlanmışam, "kərəm eylə, çöl daşını çay daşına qatma" deyən Xətaiylə qürurlanmışam, cahana sığmayan Nəsimiylə qürurlanmışam, "ayrılarmı könül candan" deyən Səməd Vurğunla qürurlanmışam, ...

Vəcihə Səmədovanın, Səttar Bəhlulzadənin, Maral Rəhmanzadənin, Tahir Salahovun, Mircavadın, ...tablolarıyla qürurlanmışam...

Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Tofiq Quliyevin, ...musiqisiylə qürurlanmışam...

Əshabi-Kəfvlə, Qobustan qayaüstü rəsmləriylə, Örənqalayla, Qız qalasıyla, Gələrsən-Görərsən qalasıyla, Ərk qalasıyla, ...qürurlanmışam...

Marağa rəsədxanasıyla, o rəsədxananın qurucusu Nəsirəddin Tusiylə qürurlanmışam...

Azərbaycanımızın zəngin təbiətiylə qürurlanmışam...

Ermənilər havadarlarının köməyiylə torpaqlarımızı işğal eləyib. Bu, mənim də çəkilməz dərdimdi. Bu işğal mənim də ömrümü üşüdür. Apreldə ermənilərin irimiqyaslı təxribatlarının qarşısını alan, əks-hücumla neçə əhəmiyyətli yüksəkliyi azad edən Azərbaycan Ordusuyla qürurlanıram.

Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin döyüş bölgələrinə səfəri, hərbçilərlə, əhaliylə görüşməsi, söhbətləşməsi hamı kimi mənim də ürəyimi təllendirdi. Neçə ay əvvəl "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!" devizi ilə keçirilmiş kütləvi vətənpərvərlik tədbirini xatırladım. Ölkə rəhbərinin Silahlı Qüvvələrimizin gücünün, qüdrətinin artırılması istiqamətində gördüyü işlərdən qürurlanıram, ordumuzun şəxsi heyətinin dövlətə, dövlətçiliyə, Vətənə sevgisindən qürurlanıram...

Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımıza görə qürurlanıram, o bayraqlarımızın orada dalğalanması uğrunda döyüşən əsgərlərimizə, zabitlərimizə görə qürurlanıram...

**Şəbnəm BEHBUDZADƏ**

# Ordumuzla mən də fəxr duyuram

Azərbaycan milləti öz gücü ilə sözünü demiş bir millətdir. Səfəvi imperiyası dövründə azəri-türk xalqı öz gücünü göstərib və dünyanın bir hissəsində ağalıq edib. Müasir ordumuzun əsası 1918-ci ilə təsadüf edir. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin ordusu təşkil olunub. Ümumiyyətlə, ordu müstəqil dövlətin atributlarından biridir.

Tarixə və Azərbaycan dövlətlərinin xarici siyasətinə nəzər salsaq, başa düşülər ki, heç bir dövlətin nə ərazisində, nə də malında gözümüz olmayıb. Çünki əzəli torpaqlarımız özümüzə bəsdir. Uca Allah bu torpağın altına da, üstünə də sərvətlər yetirib. Bəlkə buna görə də tarixən yadellilər torpaqlarımızı əlimizdən almaq, sərvətlərimizi mənimsəmək istəyiblər. Hələ birinci eranın sonlarından erməni-gürcü feodallarının, slavyanların ölkəmizə yürüşləri bunu deməyə əsas verir. Sonradan isə istər şərqdən, istərsə də qərbdən və ya şimaldan təhlükələrlə üz-üzə qalmışıq. Yuxarıda qeyd etdiyim kimi, hələ birinci eranın sonundan bəri, qonşuluqda onun-bunun yurd-yuvasında özünə yer tapmağa çalışan ermənilər bizim əzəli torpaqlarımıza göz dikdilər. Minlərlə Azərbaycan övladı hər birimiz üçün müqəddəs sayılan Qarabağ uğrunda şəhid oldu.

Bu gün məğlubedilməz ordumuz var. Dünyaya səpələnmiş milyonlarla azərbaycanlının ürəyi bu ordu ilə döyünür və hər an qələbə xəbərini eşitmək istəyir. Ordumuzu digər ölkələrin, əsasən də, başqasının torpağında müharibə aparan ordularla fərqləndirmək istəyirəm. Məsələn, elə işğalçı Ermənistan ordusu ilə. Düşmənlərimiz yaxşı bilirlər ki, Azərbaycan Ordusu tezliklə öz torpaqlarına sahib çıxacaq. Amma onlara fikir verin. Aprel döyüşlərində yüksək rütbəli hərbçiləri aradan çıxdılar. Amma Azərbaycan zabiti, mərd Azərbaycan əsgəri öz doğma torpağı üçün son nəfəsinədək döyüşdü. Bu gün də hər birimiz Vətən yolunda canımızdan da keçməyə hazırıq. Təki Ali Baş Komandanımız əmr versin.

**Mehman NƏBİYEV,**
**Bakı Slavyan Universitetinin tələbəsi**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 588
Nüsxə 4650